"Təsdiq edilmişdir"

"Bank Respublika" ASC-nin

Müşahidə Şurasının

"08" İyul 2024-cü il tarixli qərarı ilə təsdiq edilmişdir.

Protokol № 65

Əlavə № 05

Müşahidə Şurasının Sədri

.....

S.X.Rəhimov

Risklərin idarə edilməsi üzrə

SİYASƏT

Reyestr № Rİ000409
Nəşr № 09

Bank Respublika
sizə faydalı

Mündəricat

1. Ümumi müddəalar

1.1. "Bank Respublika" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Bank") Risklərin İdarəedilməsi üzrə Siyasəti (bundan sonra "Siyasət") "Banklar Haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Mərkəzi Bankın normativ xarakterli hüquqi sənədlərini, Bazel Komitəsinin bununla əlaqədar tələblərini və "Bank Respublika" ASC-nin Nizamnaməsini əsas alaraq hazırlanmışdır.

1.2. Siyasət, Bankda risklərin idarə olunmasının məqsədlərini, funksiyalarını, əsas prinsiplərini və vasitələrini müəyyənləşdirir.

2. Əsas anlayışlar

2.1. Siyasətdə istifadə edilən anlayışlar aşağıdakı mənaları daşıyır:

2.1.1. **Risk** – ehtimal olunan və ya gözlənilməz hadisələrin baş verməsi nəticəsində yaranan xərclərin (zərərin) bankın kapitalına mənfi təsir göstərməsi ehtimalı;

2.1.2. **Risklərin İdarəedilməsi Sistemi** - risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi, ölçülməsi, tənzimlənməsi və onların uçotunu göstərən proses;

2.1.3. **Baş risk inzibatçısı** – risklərin idarə edilməsi funksiyası ilə əlaqədar bankın struktur bölmələrinin fəaliyyətinə nəzarəti (kuratorluğu) həyata keçirən İdarə Heyətinin üzvü;

2.1.4. **Risk profili** – Bankın məruz qaldığı (və ya məruz qala biləcəyi) risklərin ümumiləşdirilmiş səviyyəsi;

2.1.5. **Riskgötürmə qabiliyyəti** – kapital, likvidlik və digər prudensial tələbləri pozmamaq şərti ilə Bankın götürə biləcəyi riskin maksimum həcmi;

2.1.6. **Risk iştahası** – bankın strateji hədəflərinə çatması üçün riskgötürmə qabiliyyəti çərçivəsində qəbul etmək istədiyi riskin həcmi;

2.1.7. **Risk limiti** – Bankın hər bir fəaliyyət növü üzrə qəbul edilən riskin maksimal həddi;

2.1.8. **Riskin qəbul edilməsi** – kapitalın adekvatlığına dair tələblərə riayət etmək şərti ilə bankın kapitalı hesabına mümkün zərərin qarşılanması;

2.1.9. **Riskin minimallaşdırılması** - Müxtəlif tənzimləyici metodlarla risklərin səviyyəsinin azaldılması;

2.1.10. **Riskin ötürülməsi** - Bankın riskli olaraq xarakterizə edilən əməliyyatlarının bankdan kənar təşkilatlara ötürülməsi;

2.1.11. **Riskdən yayınma** - Riskli olaraq xarakterizə edilən əməliyyatların həyata keçirilməməsi.

3. Siyasətin məqsədi

3.1. Bank, Azərbaycan Respublikasının hüquqi-normativ sənədlərinin tələbləri daxilində, ən mükəmməl təcrübələri müşahidə edərək fəaliyyətinin həcminə, keyfiyyətinə və mürəkkəbliyinə uyğun olaraq risklərin idarə olunmasını təmin edir. Siyasətin ana hədəfi risklərin idarə edilməsi qaydalarını, buna dair prinsipləri, məsul strukturların vəzifə və məsuliyyətlərini, eyni zamanda risklərin strateji və gündəlik olaraq idarə olunması, dəyərləndirilməsi və nəzarətin təmin olunması prosedurlarını müəyyənləşdirməkdir.

3.2. Bank tərəfindən hüquqi məhdudiyyətlər və dərəcələr nəzərə alınaraq üzərinə götürəcəyi maksimum risk həddi təsbit edilir.

3.3. Siyasətin funksiyaları aşağıdakı kimidir:

- Ortaya çıxa biləcək mənfi hallarda Bankın zərərini minimum səviyyədə saxlamaq istiqamətində işləri planlaşdırmaq;
- Risklərin azaldılması məqsədilə lazımi limit və məsuliyyətləri müəyyənləşdirmək;
- Fövqəladə hallarda bankın normal fəaliyyətini təmin etmək;
- Bankın uzun müddət riskə məruz qalmasının qarşısını alan tədbirlər görmək;
- Bank vəsaitləri və aktivləri arasında ən uyğun balansı saxlamaq;
- Aktiv və passivlərin effektiv bir şəkildə idarə olunmasını təmin etmək.

4. Siyasətin əsas prinsipləri

4.1. **Risklər barədə məlumatlı olmaq:**
Hər hansı əməliyyatın aparılması barədə qərar yalnız belə əməliyyatdan yaranan risklərin hərtərəfli təhlilindən sonra həyata keçirilir. Bütün əməliyyatlar daxili normativ və/və ya təşkilatı sənədlərə uyğun olaraq aparılır. Daxili normativ, təşkilati sənədlər və ya icra prosedurunu tənzimləyən kollegial orqanların müvafiq qərarları olmadan ciddi risklər yarada bilən yeni əməliyyatların həyata keçirilməsinə yol verilmir.

4.2. **Rəhbərliyin iştirakı və məlumatlı olması:**
Bankın Müşahidə Şurası, İdarə Heyəti və digər kollegial orqanlarının rəhbərləri, habelə icra orqanlarının rəhbərləri mütəmadi olaraq qəbul edilmiş risklərin səviyyəsi və təyin edilmiş limitlərin, məhdudiyyətlərin və risklərin idarə edilməsi prosedurlarının pozulması barədə aşkar olunan faktlar üzrə məlumatları yoxlayırlar.

4.3. **Risklərin məhdudlaşdırılması:**
Risklərin səviyyəsinin məhdudlaşdırılması üçün Bankda hər bir əməliyyat və səlahiyyətə görə limitlər müəyyənləşdirilir. Limit sisteminin məqsədi, Bankın fəaliyyətlərinin həcminə və xarakterinə uyğun aktiv və passivlərin strukturunun formalaşdırılmasını təmin etməkdir.
Hər bir risk növünə görə əvvəlcədən müəyyən olunmuş limitlərə riayət edilməsinə nəzarət həyata keçirilməlidir. Limitlərdən kənarlaşma olduğu zaman, buna səbəb olan amillər müəyyənləşdirilməli və müvafiq tədbirlər görülməlidir.

4.4. **Vəzifələrin bölgüsü:**
Risklərin effektiv idarə edilməsi üçün, həmçinin risklərin qəbuledilməsi, məhdudlaşdırılması və səviyyəsinə nəzarət edilməsi prosesləri arasında maraqlar münaqişəsinin minimallaşdırılması ehtiyacını nəzərə alaraq, Bankın təşkilatı strukturu, bölmələr arasında funksiya və məsuliyyətlərin 3 müdafiə xətti prinsipinə əsasən bölüşdürülməsi vasitəsilə formalaşdırılır. Hər bir müdafiə xətti çərçivəsində sadalanmış funksiyalar bir deyil, eyni zamanda Bankın bir neçə struktur bölməsi tərəfindən icra edilə bilər.

1-ci müdafiə xətti - bu kategoriyaya fəaliyyətləri Banka birbaşa risklər yaradan bütün qruplar, Bankın müştərilərinə xidmət göstərən filial və şöbələri, habelə məhsul və xidmətlərin inkişafını həyata keçirən struktur bölmələr daxildir. 1-ci müdafiə xəttinə daxil olan struktur bölmələrin funksiyalarına aşağıdakılar aiddir:

- əməliyyatlar aparılarkən və sözləşmələr bağlanarkən risklərin aşkar edilməsi və ilkin qiymətləndirilməsi;
- risk növlərinin identifikasiyası;

- qəbul edilən və proqnozlaşdırılan risklərin səviyyəsinin Bankda qəbul edilmiş risk limitlərinə uyğunluğunun ilkin yoxlanılması.

2-ci müdafiə xətti - Bankda risklərin idarə edilməsi, maliyyə və mühasibatlıq, hüquqi və komplayens, habelə təhlükəsizlik risklərinin idarə edilməsi fuksiyasını həyata keçirən struktur bölmələr daxildir. Hüquqi və komplayens risklərinin idarə edilməsi funksiyasını həyata keçirən bölmə bankın fəaliyyətinin hüquqi və tənzimləmə tələblərinə uyğunluğuna nəzarət edir.
2-ci müdafiə xəttinə daxil olan struktur bölmələrin funksiyalarına aşağıdakılar aiddir:

- 1-ci müdafiə xətti üçün risk limitlərinin təyin edilməsi;
- risk növlərinin identifikasiyası və əhəmiyyətinin təyin edilməsi;
- Risklərin idarəedilməsi və qiymətləndirilməsi metodologiyasının hazırlanması;
- Risklərin konsolidə edilmiş səviyyəsinin qiymətləndirilməsi;
- Risklərin səviyyəsinin proqnozlaşdırılması;
- Risk limitləri sisteminin işlənib hazırlanması (risk iştahası bəyannaməsi daxil);
- qəbul edilən və proqnozlaşdırılan risklərin səviyyəsinin Bankda təsdiqlənmiş risk limitlərinə uyğunluğunun ilkin yoxlanılması (1-ci müdafiə xəttindən asılı olmayan);
- requlyator tələblərə əməl edilməsinə nəzarət (əgər konkret risk növünə aid olanı varsa);
- stress-testləşmənin keçirilməsinin təşkili/aparılması;
- 1-ci müdafiə xətti tərəfindən limitlərin pozulması halları aşkar olunarsa, risk səviyyəsinin aşağı salınması üçün tədbirlərin hazırlanması və razılaşdırılması;
- Risk üzrə hesabatlıq sisteminin formalaşdırılması və rəhbərliyə çatdırılması;
- Risk mədəniyyətinin inkişafı.

3-cü müdafiə xəttinə - birinci və ikinci müdafiə xəttini qiymətləndirmək səlahiyyəti olan müstəqil daxili audit bölməsi aiddir. Daxili audit bölməsi prosedur və mexanizmlərin effektiv və təkmil olması, habelə onların uyğun şəkildə icrasının risk əsaslı və ümumi auditini həyata keçirir.
3-cü müdafiə xəttinin funksiyalarına aşağıdakılar aiddir:

- Risklərin idarəedilməsi sisteminin daxili və xarici tələblərə uyğunluğu baxımından qiymətləndirilməsi;
- Risklərin idarəedilməsi sistemində aşkar olunan çatışmazlıqlar barədə məlumatın rəhbərliyə çatdırılması;
- Risklərin idarəedilməsi sistemində aşkar olunan boşluqların və çatışmazlıqların aradan qaldırılmasına nəzarət.

4.5. İnformasiya texnologiyaları və məlumatın keyfiyyəti

Risklərin idarəedilməsi sistemi qərarların keyfiyyətinin və qəbuledilmə sürətinin artırılmasına imkan verən muasir informasiya texnologiyaların istifadəsi üzərində qurulur. Məlumatların keyfiyyəti (tamlıq, əlçatanlıq) risklərin hesablanması və qiymətləndirilməsi nəticələrinin etibarlılığının və dəqiqliyinin təmin edilməsində kritik rol oynayır. Bank məlumatların yığılması, saxlanması, emal edilməsi və hesablanması proseslərinin maksimal dərəcədə avtomatlaşdırılmasına çalışır.

4.6. Metodların təkmilləşdirilməsi

Risklərin idarə edilməsi metodları daim inkişaf edir və təkmilləşdirilirlər: prosedurlar, texnologiyalar və informasiya sistemləri qoyulmuş strateji məqsədlər, daxili və xarici mühitdə

baş verən dəyişikliklər, həmçinin beynəlxalq praktikada olan yeniliklər nəzərə alınaraq müntəzəm qaydada yaxşılaşdırılır.

4.7. **Risk mədəniyyəti**

Risklərin idarə edilməsi sisteminin effektiv və dayanıqlı fəaliyyətinin təmin edilməsi məqsədi ilə Bankda risk mədəniyyətinin inkişafı üçün müəyyən addımlar atılır. Risk mədəniyyətinin əsas məqsədləri aşağıdakılardan ibarətdir:

- Mütəmadi təlimatlandırma vasitəsilə Bank işçilərinin risklərin idarə edilməsi sahəsində lazım olan bilik və bacarıqlara yiyələnməsi;
- İşçilərdə risklərin idarə edilməsi alətlərinin düzgün və lazım olan məqamlarda istifadəsi üzrə bacarıqların formalaşdırılması;
- İşçilər və rəhbərlər tərəfindən gündəlik fəaliyyətlərində risklərin idarə edilməsi alətlərinin düzgün istifadəsi;
- Bank daxilində risk mədəniyyətinin prinsip və qaydaları barədə açıq və aktiv kommunikasiyalar.

4.8. **Məlumatların açıqlanması**

Risklərin idarəedilməsi üzrə requlativ orqanlar tərəfindən tələb edilən bütün məlumatların və hesabatların açıqlanması nəzərdə tutulub. Hesabatların tərkibi və açıqlanma dövrililiyi Mərkəzi Bankın tələblərinə, idarəetmə uçotunun və bütün maraqlı tərəflər üçün risklər üzrə məlumatların açıqlanması tələbini nəzərə alaraq formalaşdırılır.

5. Risklərin idarəedilməsi sisteminin təşkilati strukturu

5.1. Risklərin idarəedilməsi prosesində vəzifə alan strukturların məsuliyyətləri aşağıdaki kimi müəyyənləşdirilmişdir:

5.1.1. Risklərin idarəedilməsi prosesində Bankın **Müşahidə Şurasının səlahiyyətləri** aşağıdakı kimidir:

- Effektiv təşkilati idarəetmə sisteminin yaradılması və bunun üçün lazımi mühitin təmin edilməsi;
- Bankda yenilənən və effektiv daxili nəzarət və audit sisteminin formalaşdırılması;
- Risklərin idarə olunması ilə əlaqədar təşkilati strukturun, risklərin idarəedilməsi siyasətinin, səlahiyyət və məsuliyyətlərin, müxtəlif əməliyyat növləri ilə əlaqədar daxili qaydaların, risklərin idarə olunması prosesində istifadə edilən müxtəlif metodların, limitlərin və bankın risk alma həcmlərinin təsdiq edilməsi;
- Risklərin idarə olunması ilə əlaqədar olaraq müəyyənləşdirilmiş siyasət və qaydalara riayət edilib-edilmədiyinə daxili audit tərəfindən dövri olaraq nəzarətin təmin olunması, eyni zamanda müəyyənləşdirilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün lazımi işlərin həyata keçirilməsi;
- Risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi, tənzimlənməsi üçün Bankda istifadə edilən metodlara dövri olaraq nəzarət edilməsi;
- Bankın riskləri təxmin etmə ehtimalının qiymətləndirilməsi üçün İdarə Heyəti tərəfindən istifadə olunan metodların, eyni zamanda qiymətləndirmə nəticələrinə dövri olaraq nəzarət edilməsi;
- Bank fəaliyyətinə dair rəhbərliyə və komitələrə təqdim ediləcək hesabat dövrlərinin müəyyənləşdirilməsi;

- Bankın gündəlik fəaliyyətində vəzifə sahələrinə görə strukturlar arasında maraqlar münaqişəsi ehtimalı olan sahə və vəzifələrin müəyyənləşdirilməsi və həmin maraqlar münaqişəsinin qarşısının alınması üçün lazımi işlərin görülməsi;
- Bank kapitalının requlyativ tələblər və normativ sənədlər nəzərə alınaraq uyğun şəkildə monitorinq edilməsi;
- Risklərin idarə olunması ilə əlaqədar Bankın İdarə Heyətinin işinin qiymətləndirilməsi və Risklərin İdarəedilməsi Komitəsi və İdarə Heyətinin risk idarəetməsi üzrə təkliflərinin qəbul/təsdiq edilməsi;
- Risklərin İdarəedilməsi Komitəsi və komitələrin sədr və üzvlərinin təyin olunması və bank daxilində digər komitələrə üzv qəbul edilə bilmələrinə dair qərarların qəbul edilməsi.

5.1.2. **Risklərin İdarəedilməsi Komitəsinin səlahiyyətləri** aşağıdakı kimidir:

- Risklərin idarəedilməsi prosesinin tələbatlarının müəyyənləşdirilməsi;
- Risklərin idarəedilməsi strukturuna lazımi vəzifələrin verilməsi və dövri hesabatların tələb edilməsi;
- Risklərin idarəedilməsi strukturunun fəaliyyətinin qiymətləndirilməsi və nəticələr haqqında Müşahidə Şurası və İdarə Heyətinə məlumat verilməsi;
- Müxtəlif risklərlə əlaqədar Risklərin idarəedilməsi strukturu tərəfindən İdarə Heyəti ilə razılaşdırılaraq müəyyənləşdirilən limitlərin təsdiq edilməsi üçün Müşahidə Şurasına təqdim edilməsi;
- Davamlı olaraq Bankın rastlaşdığı risklərin vəziyyəti, risklərin idarə olunması sisteminin yenilənməsi və risklərin idarə olunması prosesinin effektivliyi haqqında Müşahidə Şurasına hesabat verilməsi;
- Müştərilərə təklif olunan bütün maliyyə xidmətləri və məhsulları ilə Bankın biznes modeli və risk strategiyası arasındakı uyğunluğa nəzarət edir, təklif olunan məhsul və xidmətlərin qiymətləri və gəlirliliyini nəzərə almaqla, onlarla əlaqədar riskləri qiymətləndirir;
- Bank daxili risklərin idarə olunması funksiyasının qiymətləndirilməsi, müxtəlif əməliyyat və fəaliyyətlərə dair risk idarəetmə siyasətinin nəzərdən keçirilməsi və lazımi təkliflərin Müşahidə Şurasına təqdim olunması.

5.1.3. Risklərin idarə olunması prosesində **Bankın İdarə Heyətinin səlahiyyətləri** aşağıdaki kimidir:

- Müşahidə Şurası tərəfindən təsdiq olunmuş risklərin idarə edilməsi siyasətinə əsaslanaraq Bankın məruz qaldığı risklərin idarə edilməsinin təmin edilməsi;
- Risklərin idarə olunması ilə əlaqədar Risklərin İdarəedilməsi Komitəsi və Müşahidə Şurasına hesabatların təqdim edilməsi;
- Bankın üzləşdiyi risklərin idarə olunması prosesinə dair müvafiq və effektiv nəzarət mexanizmlərinin müəyyənləşdirilməsi üçün Müşahidə Şurasına təkliflərin verilməsi;
- Risklərin idarə olunması siyasətinin dövri olaraq nəzərdən keçirilməsi və lazım olan hallarda yoxlanması üçün Müşahidə Şurasına təkliflərin verilməsi;
- Risklərin İdarəedilməsi strukturunun fəaliyyətlərinin effektiv şəkildə aparıla bilməsi üçün lazımi mühitin təmin olunması, digər bölmələrin təsiri altında qalmadan fəaliyyətlərini müstəqil şəkildə davam etməsinin təmin olunması;
- Müşahidə Şurası tərəfindən müəyyənləşdirilən limitlər daxilində maliyyə-əməliyyat limitlərinin müəyyənləşdirilməsi.

5.1.4. **Baş Risk inzibatçısının** vəzifələri aşağıdaki kimidir:

- İdarə Heyətinin rəyini nəzərə almaqla risklərin idarəedilməsi siyasətinin hazırlanması və Risklər İdarəetmə Komitəsinə təqdim olunması;
- risklərin idarə edilməsi üzrə İdarə Heyəti ilə struktur bölmələr arasında əlaqənin təmin olunması;
- Bankın fəaliyyətinə dair risklərin növlərini və ölçüsünü göstərən dövri hesabatların etibarlı, şəffaf, kompleks şəkildə və vaxtında hazırlanmasının təmin olunması;
- Risklərin idarəedilməsi sisteminin təkmilləşdirilməsinə dair Müşahidə Şurasına və Riskləri İdarəetmə Komitəsinə təkliflərin verilməsi, (Müşahidə Şurası və Riskləri İdarəetmə Komitəsinin zəruri hesab etdiyi halda təkliflərə İdarə Heyəti tərəfindən rəy bildirilməsi tələb oluna bilər);
- Bankın məruz qaldığı risklərin onun riskgötürmə qabiliyyətinə uyğunluğunun təmin edilməsi;
- Risklərin idarəedilməsi funksiyasını yerinə yetirən struktur bölmələrin işçilərinin bilik və bacarıqlarının artırılması istiqamətində tədbirlərin görülməsi;
- Risk işhatası bəyannaməsinin baxılmasında, habelə risklərin idarə edilməsi ilə əlaqədar məsələlərin müzakirə olunmasındaMüşahidə Şurasının yığıncaqlarında iştirak.

  5.1.4.1. Baş risk inzibatçısı vəzifəsindən azad edildiyi halda, Bank bu qərarı barədə məlumatı (işdən azad edilmənin səbəbləri və bu vəzifənin yeni icraçısı barədə məlumatlarla birlikdə) qərarın qəbul edildiyi gündən sonra 5 (beş) iş günü ərzində Mərkəzi Bankda təqdim etməlidir.

  5.1.4.2. Baş risk inzibatçısı İdarə Heyətinin iştirakı olmadan, Müşahidə Şurası, Risklərin İdarəetmə Komitəsi və ya Müşahidə Şurasının müstəqil üzvü ilə görüş keçirə bilər.

  5.1.4.3. Baş risk inzibatçısı kreditlərin verilməsi, investisiyalar və yeni məhsullara dair qərarlara etiraz edə bilər (veto qoya bilər). Bu halda İdarə Heyəti məsələni baş risk inzibatçısının yazılı əsaslandırması ilə birlikdə 7 (yeddi) iş günü ərzində Riskləri İdarəetmə Komitəsinin və daha sonra Müşahidə Şurasının, yaxud birbaşa Müşahidə Şurasının müzakirəsinə çıxara bilər. Müşahidə Şurası məsələ ilə bağlı növbəti 15 (on beş) iş günü müddətində qərar qəbul edir və bu müddətdə İdarə Heyəti və bankdaxili komitələrin aidiyyəti məsələlər üzrə qərarlarının icrası dayandırılır.

  5.1.4.4. Baş risk inzibatçısı eyni vaxtda İdarə Heyətinin sədri, baş maliyyə inzibatçısı, daxili audit bölməsinin rəhbəri və ya bankda digər vəzifə tuta bilməz.

  5.1.4.5. Baş risk inzibatçısının fəaliyyəti illik əsasda Riskləri İdarəetmə Komitəsi tərəfindən nəzərdən keçirilir və qiymətləndirilir.

5.1.5. **Risklərin idarə edilməsi departamentinin** səlahiyyətləri aşağıdaki kimidir:

- Risklərin idarə edilməsi işinin əlaqələndirilməsi;
- Risklərin idarə edilməsi üzrə Bankın daxili qaydaların, habelə onlara dəyişikliklərin hazırlanması;
- Risklərin idarə edilməsi strategiyası və siyasətinə riayət edilməsinin monitorinqinin aparılması və kənarlaşmalar barədə hesabatın Risklərin idarə edilməsi Komitəsinə və İdarə Heyətinə təqdim edilməsi;
- Bankın aidiyyəti struktur bölmələri ilə birgə fəaliyyət növləri üzrə risk limitlərinin hesablanması və onlara dəyişikliklərin edilməsi barədə Risklərin idarə edilməsi Komitəsinə və İdarə Heyətinə təkliflərin verilməsi;
- Risk xəritəsinin hazırlanması və onun icrasına davamlı monitorinqin həyata keçirilməsi;

- Risk limitlərinə riayət olunmasına daimi nəzarətin həyata keçirilməsi və pozuntular barədə dərhal Baş Risk İnzibatçısına məlumatın verilməsi;
- Risklərin müəyyənləşdirilməsi və qiymətləndirilməsi üzrə metodların və modellərin seçilməsi və tətbiqi (bankın aidiyyəti struktur bölmələri ilə birgə) üzrə işlərin həyata keçirilməsi;
- Risklərin qiymətləndirilməsi, təhlili və nəticəsi barədə hesabatın İdarə Heyəti, RİK və Müşahidə Şurasına təqdim edilməsi;
- Risklərin tanınması və idarə edilməsi baxımından Bankın fəaliyyətini əhatə edən bütün proseslərə, yeni məhsul və xidmətlərə dair rəyin verilməsi;
- Aidiyyəti struktur bölmələrlə birgə stress-testlərin keçirilməsi və müəyyən edilən risklərin azaldılması məqsədi ilə tədbirlər planının hazırlanması;
- Risklərin idarə edilməsi məqsədi ilə Bankın digər struktur bölmələrindən alınmış məlumatların təhlil edilməsi;
- Risklərin idarə edilməsi prosesinə adekvat və səmərəli nəzarət prosedurlarının müəyyən olunması və təkmilləşdirilməsinə dair təkliflərin RİK-ə təqdim edilməsi;
- Bankın aidiyyəti struktur bölmələri ilə birgə fövqəladə hallar planını hazırlayaraq, RİK-ə və İdarə Heyətinə təqdim edilməsi;
- bankın risk iştahası bəyannaməsini hazırlayaraq Baş risk inzibatçısına təqdim edilməsi;
- Risk iştahası bəyannaməsinin, habelə limitlər sisteminin icra olunmasına nəzarət edilməsi, bu barədə dövrü olaraq bankın İdarə Heyətinə və RİK-ə hesabatın təqdim edilməsi;
- Məhsul, xidmət və ya proses üzrə risklərin azaldılması tədbirlərindən sonra qalıq risklərin qiymətləndirilməsinin aparılması və bu barədə İdarə Heyətinə hesabatın təqdim edilməsi;
- Risk məlumatlarının bank sistemlərindən, müvafiq strukturlarından toplanılmasının və hesabatlılığın verilməsinin koordinasiya edilməsi, habelə bu məlumatları təhlil edərək riskləri müəyyən etməklə Bankın risk profilinin yenilənməsi;
- Bank üzrə baş vermiş risk hadisələrinin toplanılması, qeydiyyatının aparılması, onların faktiki və mümkün itkilər üzrə qiymətləndirilməsi və bu barədə müvafiq hesabatlılığın hazırlanması;
- Risklərin idarə edilməsi işində bankın aidiyyəti struktur bölmələrinə metodoloji yardımın göstərilməsi**.**

5.1.6. **Kredit Komitəsinin səlahiyyətləri** aşağıdaki kimidir:

- Kredit tələbləri ilə əlaqədar kredit risklərinin qiymətləndirilməsi və qərarların qəbulu;
- Müəyyən kreditlərin verilməsiylə əlaqədar qadağaların qoyulması;
- Təsnifləndirilmiş kredit portfelində müəyyən qrup kreditlərin verilməsinə qadağa qoyulması;
- Müxtəlif balansdankənar əməliyyatlarla əlaqədar kredit risklərinin qiymətləndirilməsi və qərarların qəbul edilməsi;
- Müəyyən dövrlərdə kredit portfelinə nəzarət edilməsi;
- Kreditlərlə əlaqədar qəbul edilmiş girovların dövri olaraq qiymətləndirilməsinin təmin edilməsi;
- Kreditlərin verilmə prosesinin prosedurlara uyğunluğunun təmin edilməsi;
- Kreditlərlə əlaqədar ehtiyat vəsait yetərliliyinə nəzarət edilməsi və təhlili.

5.1.7. **Aktiv və Passivlərin İdarəedilməsi Komitəsinin** səlahiyyətləri aşağıdakı kimidir:

- Bankın bazar risklərinin azaldılması üçün qərarların qəbul edilməsi;
- Bankın likvidliyinin proqnozlaşdırılması və Bankın maliyyə vəsaitlərinə olan tələbatının, uzun müddətli planların hazırlanması, qiymətlərin müəyyənləşdirilməsi.

5.1.8. **Bankın biznes bölmələrinin** səlahiyyətləri aşağıdakı kimidir:
- gündəlik fəaliyyətində öz səlahiyyəti daxilində risklərin idarə edilməsi;
- aidiyyəti risk limitlərinə riayət olunmasının təmin edilməsi.

5.1.9. **Daxili audit bölməsinin** səlahiyyətləri aşağıdakı kimidir:
- risklərin idarə edilməsi sisteminin səmərəliyinin və adekvatlığının yoxlanılması;
- yoxlamaların nəticələri barədə Müşahidə Şurası və Audit Komitəsinə hesabat, təklif və tövsiyələrin təqdim edilməsi;
- risklərin idarə edilməsi bölməsi ilə məlumat mübadiləsinin təmin edilməsi

5.2. Bankın idarəetmə strukturları risklərin idarə edilməsiylə əlaqədar fəaliyyətlərini hər bir strukturun əsasnaməsində göstərilən səlahiyyətlər daxilində həyata keçirir.

6. Risklərin idarə edilməsi üzrə siyasətin əsas istiqamətləri

6.1. **Kredit riski** - bu risk borcalanın bank qarşısında öhdəliyinin vaxtında və ya tam icra olunmaması nəticəsində yaranır. Bankda kredit riskinin idarə edilməsinin prinsip, məqsəd və vəzifələri "Kredit risklərinin idarə edilməsi üzrə Siyasət"i ilə müəyyən edilir.

6.2. **Bazar riski** - bu risk bazarda faiz dərəcələrinin, valyuta məzənnələrinin, qiymətli kağızların və əmtəələrin dəyərində baş verən dəyişikliklərlə əlaqədar yaranır. Bazar riskinin aşağıdakı alt kateqoriyaları mövcuddur:
- faiz dərəcəsi riski - faiz dərəcələrinin əlverişsiz dəyişməsi ilə əlaqədar yaranan risk;
- valyuta riski – xarici valyuta məzənnələrinin əlverişsiz dəyişməsi ilə əlaqədar yaranan risk;
- kapital riski - bankın aldığı qiymətli kağızların dəyərinin əlverişsiz dəyişməsi ilə əlaqədar yaranan risk;
- əmtəə riski - bazarda əmtəələrin qiymətinin əlverişsiz dəyişməsi ilə əlaqədar yaranan risk.

Bazar riskinin idarə edilməsi sahəsində aşağıdakı prosedurlar həyata keçirilir:
- Əsas bazar göstəriciləri üzrə proqnozların hazırlanması;
- Əsas bazar riski funksiyaları üçün erkən xəbərdarlıq meyarlarının və prosedurların müəyyənləşdirilməsi;
- Bankın kapital, valyuta və faiz dərəcəsi risklərinin idarə edilməsi üçün hedcinq strategiyalarının metodoloji qiymətləndirilməsi;
- Riskə məruz qalma dərəcəsinin azaldılması/ portfelin keyfiyyətinin təkmilləşdirilməsi üçün mütəmadi tədbirlərin görülməsi;
- Riskə məruz dəyər (Value at Risk) kimi risk metriklərinin hesablanması;
- Bankın balansının bazar parametrlərinin dəyişməsinə həssaslığının təhlili (ilk növbədə, faiz dərəcələrinin və/ və ya valyuta məzənnələrinin), həmçinin onların kəskin dəyişmələrinə Bankın dayanıqlığının qiymətləndirilməsi (stress-test);
- Bankın aktiv və passiv əməliyyatlarının ssenari təhlili, aktiv və passivlərin strukturunun məqsədli göstəricilərinin həcm, təcililik, gəlirlilik/dəyər üzrə müəyyən edilməsi;
- Açıq valyuta mövqelərinin limitlərinin tətbiqi və izlənməsi.

6.3. **Əməliyyat riski** - bu risk bank əməkdaşları tərəfindən yol verilmiş nöqsan və səhvlər, informasiya sistemi və texnologiyalarda baş vermiş problem və çatışmazlıqlar, habelə bankdankənar

hadisələrlə əlaqədar yaranır. Bank əməliyyat riskinin effektiv idarə edilməsi üçün, bir-biri ilə əlaqəli risklər (məsələn, əməliyyat riski hadisəsi səbəbindən baş verən kredit riski) də daxil olmaqla, müvafiq risklərin dəqiq müəyyən edilməsi və düzgün təsnifləşdirilməsi üçün effektiv proses və prosedurları tətbiq edir. Bankda əməliyyat riskinin idarə edilməsinin prinsip, məqsəd və vəzifələri "Əməliyyat riskinin idarə edilməsinə dair Təlimat" ilə müəyyən edilir.

Əməliyyat riskinin aşağıdakı alt kateqoriyaları mövcuddur:

6.3.1. **<u>İnsan resursu riski</u>** - bankın əməkdaşları tərəfindən bilərəkdən və ya bilmədən bank əməliyyatlarının həyata keçirilməsi zamanı mövcud hüquqi aktların pozulması, səhv və nöqsanlara yol verilməsi nəticəsində yaranan risk.

6.3.1.1. İnsan resursu riskinin idarə edilməsi sahəsində aşağıdakı prosedurlar həyata keçirilir:

- Seçmə, sertifikatlaşdırma, kadr hazırlığı və motivasiya sistemini müəyyənləşdirən adekvat kadr siyasətinin aparılması;
- Etik məsələlərin həllinə yönəlmiş, maraqların toqquşmasının və rəsmi (daxili) məlumatların qanunsuz istifadəsinin qarşısının alınmasına, korporativ münaqişələrin həllinə və s.yönəlmiş daxili normativ sənədlərin hazırlanması və tətbiqi;
- Bankın struktur bölmələrinin funksiya və səlahiyyətlərini müəyyən edən daxili sənədlərin mövcudluğu;
- Səlahiyyət, funksional məsuliyyət və işçilərin yerini dəyişdirmə imkanlarını təyin edən vəzifə təlimatlarının mövcudluğu;
- Əməliyyat və əməliyyatları həyata keçirmək/icazə vermək səlahiyyətinə məhdudiyyətlərin (limitlərin) qoyulması;
- Rəsmi və məxfi məlumatlara, kompüter şəbəkələrinə və sistemlərinə, Bankın təhlükəsizlik sistemlərinə girişin idarəetmə sistemi və girişə nəzarətin aparılması.

6.3.2. **<u>İnformasiya texnologiyaları riski</u>** - bankın informasiya sistemi və ya texnologiyalarında baş verən problemlərlə əlaqədar yaranan risk.

6.3.2.1. İnformasiya texnologiyaları riskinin idarə edilməsi sahəsində aşağıdakı prosedurlar həyata keçirilir:

- İnformasiya texnologiyaları riskinin idarə edilməsi üçün İnformasiya texnologiyaları sistemi və şəbəkələr aşağıdakı kimi müxtəlif təbiətli təhlükələrdən müdafiə olunmalıdırlar. Məsələn, sənaye casusluğu, sabotaj (qəsdən işə mane olma), vandalizm, işçi heyətinin səhvi, laqeydliyin və qəsdən törətdiyi hərəkətlər, yanğın, daşqın, kompüter virusları, haker hücumları, dələduzluq və s.
- Bankda İnformasiya texnologiyalarının inkişafı siyasəti çərçivəsində elə hədəf səviyyəsi təyin edilir ki, ona çatmaqla Bankın biznesinin informasiya tərkibinə yuxarıda adları çəkilən təhlükələrin mənfi təsiri vaxtında aşkar edilsin, zəiflədilsin və ya aradan qaldırılsın, beləliklə qarşısı effektiv dərəcədə alınsın.

6.3.2.2. İnformasiya texnogiyalarına aid risklərin aktiv şəkildə idarə edilməsi üçün aşağıdakı hərəkətlər həyata keçirilir:

- İT-yə aid olan təhlükələrin monitorinqi və analizi;
- hücumların/zəifliklərin mərkəzləşdirilmiş formada aşkar edilməsi, qeydiyyatı, genişləndirilməsi və İT-dəki anlaşılmazlıqların araşdırılması;
- aradan qaldırma məsələlərinin, həmçinin qoruyucu (preventiv) tədbirlərin səmərəli şəkildə uyğunlaşdırılması və təkmilləşdirilməsi;
- statistika, həmçinin ən yaxşı təcrübə nümunələrinin toplanması və təhlili;
- İT-nin auditi.

6.3.2.3. İT təminatının texniki vasitələrindən istifadəsi üzrə nəzarət prosedurları aşağıdakılardır:

- poçta nəzarət;
- şəbəkə trafikinin tərkibinin təhlili (daxili, xarici, və həmçinin İnternet), anti-spam,
- kriptoqrafiya, sertifikatlar mərkəzi, şifrə açarları, rəqəmsal elektron imza və başqaları;
- hücumların analizi(IDS/IPS), İT infrastrukturundakı zəif məqamların analizi, konfiqurasiyanın icazəsiz dəyişdirilməsi üzərində nəzarət, elektron jurnalların təhlili, müraciətlərə əsasən vacib hadisələrin tutuşdurulması, icazəsiz hərəkətlərin üzə çıxarılması məqsədilə vacib hadisələrin təhlili;
- antivirus müdafiəsi.

6.3.2.4. Bank xidmət çeşidliyinin artırılması məqsədilə müvafiq maliyyə məlumatlarının API-lər (Application Programming Interfaces) üzərindən emal edilməsi istiqamətində əməkdaşlıq edir. Bu zaman məlumat təhlükəsizliyinin təmin edilməsi istiqamətində bank tərəfindən aşağıdakı alətlərlə risklərin qiymətləndirməsi və monitorinqi həyata keçirilir:

- Üçüncü şəxslərlə əməkdaşlıqdan öncə bank tərəfindən əməliyyat, informasiya təhlükəsizliyi, komplayens və hüquqi risklərin qiymətləndirilməsi aparılır;
- Üçüncü şəxslərin informasiya təhlükəsizliyi üzrə daxili təlimat və qaydaları, daxili və kənar audit hesabatları, bank sirrinin, müştərilərin məxfi məlumat bazasının sızdırılması hallarının mümkün olub-olmaması araşdırılır;
- Bankın İnformasiya Təhlükəsizliyi Departamenti tərəfindən "pen-test"lər aparılır və monitorinqlər həyata keçirilir;
- Risklərin İdarə Edilməsi Departamenti tərəfindən API-lar üzrə əməliyyat və İT risklərin ölçülməsi istiqamətində ssenari təhlilləri aparılır və risklər qiymətləndirilir.

6.3.3. <u>Komplayens riski</u> - ***bankın qanunvericiliyə və maliyyə bazarlarını tənzimləyən hüquqi aktların tələblərinə riayət etməməsi nəticəsində üzləşə biləcəyi təsir tədbirləri və sanksiyalar, maliyyə itkiləri və ya nüfuzunun itirilməsi riski***.

Komplayens riskinin idarə edilməsi sahəsində aşağıdakı prosedurlar həyata keçirilir:

- ***Bankda komplayens idarəetmə sistemi "Komplayens Siyasət" və daxili qaydalar əsasında təşkil olunur;***
- ***Bankın rəhbərliyi komplayens mədəniyyəti, dürüstlüyü, şəffaflığı və etik davranış standartlarını təşviq olunur;***
- ***Bankda komplayens risklərinin idarə edilməsi üçün komplayens funksiyasını həyata keçirən müstəqil struktur bölmə fəaliyyət göstərir;***
- ***Komplayens funksiyası bankda komplayens riskinin müəyyən edilməsi, ölçülməsi, monitorinqi və nəzarəti üçün daxili prosedur və metodları, həmçinin görüləcək tədbirləri müəyyən edir;***
- ***Komplayens funksiyası tərəfindən aşkarlanmış və bankın dayanıqlılıq göstəricilərinə neqativ təsir edəcək risklər və çatışmazlıqlar barədə, habelə bunların aradan qaldırılması üzrə görülmüş və (və ya) görüləcək tədbirlər barədə Mərkəzi Bank məlumatlandırılır;***
- ***Komplayens funksiyası bankın əməkdaşları üçün komplayens riskləri ilə əlaqədar təlim proqramını hazırlayır və aidiyyəti struktur bölmələrlə birgə proqramın icrasını təmin edir;***
- ***Komplayens funksiyası komplayens risklərinin idarə edilməsi üzrə İdarə Heyətinin fəaliyyətinə davamlı dəstəyi təmin edir;***
- ***Komplayens funksiyası yeni bank məhsullarının və xidmətlərinin hazırlanması və tətbiqi prosesində iştirak edir;***
- ***Komplayens funksiyası komplayens risklərinin əhatə olunduğu yeni tələblərlə əlaqədar bankdaxili kommunikasiyanı təmin edir;***

- ***Komplayens funksiyası dövri əsasda, pozuntular nəticəsində əhəmiyyətli komplayens riskləri baş verdiyi halda isə növbədənkənar əsasda hesabatları bankın rəhbərliyinə təqdim edir;***
- ***ƏL/TMM komplayens risklərinin idarə edilməsi məqsədilə Bankda "ƏL/TMM haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanunları və Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidməti və Azərbaycan Respublikası Mərkəzi Bank normativ qaydalarına uyğun olaraq daxili nəzarət proqramı tətbiq olunur;***
- Əməliyyatların qanunverici və nəzarət orqanlarının tələblərinə uyğunluğunu yoxlanılır;

- ***ƏL/TMM üzrə Avtomatlaşdırılmış Skrininq və Monitorinq proqram təminatından istifadə edərək müştəriləri risk qruplarına bölür, şübhəli əməliyyatları aşkarlamaq üçün ssenarilər hazırlanır və ssenarilər əsasında aşkarlanan şübhəli əməliyyatları həyata keçirən müştərilər araşdırılır və qaydalara uyğun olaraq tədbirlər görülür;***
- ***ƏL/TMM üzrə Avtomatlaşdırılmış Skrininq və Monitorinq proqram təminatı vasitəsilə SWIFT, AZİPS, XÖHKS, AÖS və Təcili pul köçürmə (TPK) sistemləri ilə müştərilərin ölkədaxili və transsərhəd bütün daxilolma və köçürmə əməliyyatlarını yerli və beynəlxalq sanksiya siyahıları ilə yoxlanılır, qaydalara uyğun olaraq zəruri tədbirlər görülür;***
- ***Bankın "Antikorrupsiya" Siyasətinin tələblərinə uyğun olaraq tədbirlər görülür;***
- Bankın fəaliyyətinin FATCA və CRS beynəlxalq vergi hesabatlılıq tələblərinə uyğun həyata keçirilməsi və sair.

6.3.4. **Hüquqi risk** - hüquqi aktların, o cümlədən nəzarət orqanının və vergi orqanlarının hüquqi aktlarının tələblərinin pozulması, tam, vaxtında və ya düzgün tətbiq edilməməsi, bankın daxili qaydalarının qəbul edilməməsi, habelə daxili qaydalarda ziddiyyət və boşluqlar nəticəsində yaranan risk.

Hüquqi riskin idarə edilməsi sahəsində aşağıdakı prosedurlar yerinə yetirilməlidir:

- Bankdaxili müqavilələrin şablon formalarının hazırlanması və daim təkmilləşdirilməsi;
- Bankın tərəf olduğu müqavilələrin hüquqi ekspertizasını həyata keçirilməsi;
- Bankdaxili təlimat, qayda və prosedurların, əsasnamələrin ekspertizasının həyata keçirilməsi;
- Banka daxil olan bütün hüquqi sorğuların cavablandırılması, dövlət orqanlarında bankı maraqlarını qorunması;
- Bankın struktur bölmələrinin əməkdaşlarına hüquqi məsələlərlə bağlı təlimlərin keçirilməsi və sair.

6.3.5. Kənar risk - üçüncü tərəf və ya təbiətin vurduğu ziyan nəticəsində yaranan riskdir. Bankın informasiya texnologiyalarına üçüncü şəxslər tərəfindən vurula bilən zərərlərin qarşısını almaq üçün görülən tədbrilərin əsas prinsip, məqsəd və vəzifələri İnformasiya texnologiyaları riskinin idarə edilməsinə aid sənədlər ilə ("İnformasiya sistemi və digər informasiya aktivlərinin məqbul istifadə siyasəti", "İnformasiya Texnologiyaları üzrə Siyasət", "İnformasiya Təhlükəsizliyi Siyasəti" və sair) əhatə edilir, fövqəladə hallar yaranan risklərin qarşısının alınması üçün və bankın davamlı biznes fəaliyyətinin təmin olunması məqsədi ilə həyata keçiriləcək tədbirləri özündə əks etdirən fövqəladə hallar planı tərtib olunur.

6.4. **Likvidlik riski** - bu risk planlaşdırılmış və gözlənilməyən öhdəliklərin vaxtında və effektiv yerinə yetirilə bilməməsi nəticəsində yaranır. Likvidlik riskinin idarə edilməsi likvidliyin təhlili və planlaşdırılması (proqnozlaşdırma) vasitəsi ilə həyata keçirilir. Bankda likvidliyinin idarə edilməsinin prinsip, məqsəd və vəzifələri "Likvidliyin idarə edilməsi Siyasəti" ilə müəyyən edilir.

6.5. **Nüfuz riski** - bu risk banka qarşı etimadın azalması və mənfi ictimai rəy nəticəsində yaranır. Nüfuz riskinin idarə edilməsinin əsas məqsədi mümkün itkilərin azaldılması, Bankın işgüzar imicinin səhimdarlar, müştərilər, tərəfdaşlar, maliyyə bazarının iştirakçıları, dövlət nəzarəti və yerli özünüidarəetmə orqanları, banklar assosasiyası qarşısında qoruyub saxlamaqdır.
Nüfuz riskinə effektiv nəzarət üçün nüfuz riskinin kəmiyyət göstəriciləri nəzarətdə saxlanılır, riskin səviyyəsinə təsir edə biləcək bankdaxili qaydaların və prosedurların Bankın əməkdaşları tərəfindən yerinə yetirilməsinə daimi nəzarət təmin edilir, bankın infrastrukturundan cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakların leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi məqsədi ilə istifadəsinin qarşısını almaq üçün zəruri tədbirlər görülür. Həmçinin media orqanları ilə işin təşkili (mətbuatda dərc olunan bank haqqında qərəzli və mənfi yazıların dövri monitorinqi və operativ şəkildə cavabların hazırlanaraq dərc edilməsi və s.), müştəri şikayətlərinin mütəmadi təhlili, əsas səbəblərin aradan qaldırılması üçün tədbirlərin görülməsi, filiallarda müştəri xidmətinin keyfiyyətinin artırılması istiqamətində normativ sənədlərin, təlimatların hazırlanması, müvafiq təlimlərin keçirilməsi kimi tədbirlər həyata keçirilir.

6.6. **Ətraf mühit və sosial risklər** – bu risk ekoloji, sosial və idarəetmə problemlərin mövcudluğu nəticəsində yaranır. Bankda ətraf mühit və sosial risklərin qiymətləndirilməsi,təqibi prosesi "Ətraf mühit və sosial risklərin idarə edilməsinə dair Qaydalar"la müəyyən edilir.

7. Risklərin idarə olunmasında əsas metodlar

7.1. Risklərin idarə olunması Bankın bütün səviyyələrində əhatəli olaraq aparılmalıdır. Bankın fəaliyyətində müəyyənləşdirilmiş risklərin qiymətləndirmə metodları risk idarəetmə prosesinin bir hissəsidir. Aşağıdakı metodlar istifadə edilərək hər bir riskdən gözlənilən mümkün itkilər hesablanmalı və kapitala göstərdiyi təsirdən asılı olmayaraq risklərə ayrı-ayrılıqda yenidən baxılmalı və konkret təkliflər verilməlidir.

7.2. Risklərin müəyyənləşdirilməsi aşağıdakı metodlar vasitəsilə həyata keçirilməlidir:

7.2.1. **Risk təhlili cədvəli**: Risk təhlili cədvəli bankın strukturundakı hər bölmənin rastlaşdığı risklər haqqında məlumatı əks etdirir. Risk təhlili cədvəli Risklərin İdarəedilməsi departamenti tərəfindən tərtib edilməli və nəzarət edilməlidir. Risk təhlili cədvəlində: Bankın məruz qala biləcəyi bütün risklər, risk kateqoriyası, alt kateqoriya, riskin ortaya çıxmasına səbəb olan daxili və xarici amillər, riskin yarada biləcəyi digər risklər və mümkün zərər, risk tezliyi, riskin idarə olunması və qiymətləndirilməsi vasitələri, riskə nəzarət edilməsindən məsul şəxs və/və ya struktur vahid kimi amillər yer almalıdır.

7.2.2. **Anketlər**: Anketlərin tətbiq etmə intervalı və məsələsi Risklərin İdarəedilməsi Komitəsi tərəfindən müəyyənləşdirilir. Anketlər Risklərin İdarəedilməsi departamenti tərəfindən məsələyə müvafiq şəkildə Bankın digər strukturların işçiləri ilə birlikdə hazırlanmalıdır.

7.2.3. **Empirik (tətbiqi) təhlillər**: Bank risklərinin müəyyənləşdirilməsi üçün empirik məlumatlara, daxili və/və ya digər bankların təcrübələrinə və itkilərlə əlaqədar rəqəmlərə görə təhlilləri mütəmadi olaraq aparılmalıdır.

7.2.4. **Erkən xəbərdarlıq sistemləri** - Bankda risklərin monitorinqinin həyata keçirilməsi üçün erkən xəbərdarlıq sistemlərindən istifadə olunur. Erkən xəbərdarlıq sistemi bank fəaliyyətində istifadə edilən müxtəlif əmsal və faktorların onlar üzrə müəyyən edilmiş hədlərə yaxınlaşması nəticəsində müxtəlif təhlükələrin yaranma ehtimalları və risklər barədə məlumatların verilməsini təmin edir.

7.2.5. **Ssenari təhlilləri**: Ssenari təhlilləri müxtəlif ssenarilərin təhlili nəticəsində risklərin müəyyənləşdirilməsidir.

7.3. Risklərin təsbit olunmasıyla əldə edilən nəticələr sənədləşdirilməli, hesabat hazırlanmalı və Risklərin İdarəedilməsi Komitəsinə təqdim edilməlidir.

7.4. Risklərin qiymətləndirilməsi üçün istifadə ediləcək müxtəlif metod və modellərin formalaşdırılması zamanı nəzərə alınması vacib olan amillər:

- Bank əməliyyatlarının mürəkkəbliyi, həcmi və strukturu;
- Metod və modellərin istifadə edilməsinin məqsədi və əhəmiyyəti;
- Bank tərəfindən metod və modellərdə istifadə edilən fərziyyələr;
- İstifadə ediləcək məlumat verilənlər bazasının varlığı;
- Məlumat bazasının yetərliliyi;
- İşçilərin təcrübə və bilik səviyyələri.

7.5. Risklərin qiymətləndirilməsi risklərin müəyyənləşdirilməsi prosesində əldə edilmiş nəticələr əsasında həyata keçirilir. Bu zaman kəmiyyət və keyfiyyət göstəricilərinin təhlili əsasında bankın riskgötürmə qabiliyyəti müəyyən edilir və risk səviyyəsi qiymətləndirilir. Risklərin qiymətləndirilməsi üçün istifadə olunan metodların ətraflı izahı bankdaxili qaydalarda öz əksini tapmalıdır. Qiymətləndirilmə üçün aşağıdakı modellərdən istifadə oluna bilər:

7.5.1. **riskə məruz dəyər modelləri** - riskə məruz dəyər hər hansı bir müddət ərzində (ən azı bir il), əvvəlcədən müəyyən edilmiş əminlik dərəcəsi ilə ehtimal olunan zərərin maksimum məbləğidir. Həmin məbləğ Bankın müxtəlif risk növləri üzrə ehtimal olunan zərərin həcmini əks etdirir. İstənilən riskə məruz dəyər modeli tətbiq edilərkən əminlik dərəcəsi kimi minimum olaraq 95 və 99% götürülür;

7.5.2. **riskə məruz portfel** - bu alət kreditləri gecikmə müddətlərinə görə qruplaşdırmaqla kredit riskini hesablamağa yardım edir. Gecikmə qrupları bir ilədək aylıq, iki ilədək illik və iki ildən çox olan dövrü ümumi şəkildə əhatə etməlidir. Bu müddət qrupları Bank tərəfindən daha qısa müddətlər üzrə qruplaşdırıla bilər;

7.5.3. **iflasa ekvivalent risk** - hər bir gecikmə qrupuna iflas olma ehtimalı verilməklə ümumi portfelin potensial iflas həcmi proqnozlaşdırılır. İflas olma ehtimalı Bankın empirik məlumatları əsasında müəyyən edilir. Gecikmə dövrü artdıqca bu ehtimal da yüksəlir və gecikmə müddəti bir ildən artıq olan vaxtı keçmiş kredit qrupları üzrə 100% kimi müəyyən edilir;

7.5.4. **"vintaj" təhlili** - bu alət vaxtı keçmiş kreditlərin verildiyi tarix, bölmə, inzibatçı, kredit mütəxəssisi və digər meyarlar üzrə detallı təhlil etmək imkanı yaratmaqla portfel üzrə yaranmış problemlərin daha effektiv şəkildə aradan qaldırılmasını təmin edir. Kredit portfelinin strukturuna əsasən yuxarıda qeyd olunan meyarlarla yanaşı əlavə təhlil indikatorları da müəyyən oluna bilər;

7.5.5. **stress-testlər** - Bankın risk profilinə mənfi təsir edə biləcək hadisələrin müəyyən edilməsi və qiymətləndirilməsi üçün əməliyyatların həcmindən və fəaliyyətinin mürəkkəbliyindən asılı olaraq stress-test modelləri hazırlanır və ən azı ildə bir dəfə yenilənir:

7.5.5.1. stress-test modeli çərçivəsində hər bir şokun ən əlverişsiz həlddə dəyişməsi ehtimalı nəzərə alınır. Bu şoklar bazar, kredit, likvidlik, əməliyyat və digər risklərin komponentlərini özündə cəmləşdirir;

7.5.5.2. stress-testlərin keçirilməsi nəticəsində Bank kapitalının şoklara dözümlüyü, şoklar nəticəsində Bankın məruz qaldığı maksimum zərər və fəaliyyətindəki digər boşluqlar müəyyən edilir;

7.5.5.3. stress-testlər həyata keçirilərkən "çox əlverişsiz", "əlverişsiz" və "ehtimal olunan" ssenarilər tərtib olunur və ehtimallar daxil olmaqla hər bir ssenari üçün ayrıca meyarlar və

şoklar müəyyən edilir. Stress-testlərin hazırlanması zamanı Bank empirik məlumatlardan, potensial riskləri və maksimal itkiləri nəzərə alan ehtimal oluna bilən ssenarilərdən istifadə edir;

7.5.5.4. stress-testlər ən azı hər altı aydan bir həyata keçirilir;

7.5.5.5. stress-testin nəticələri üzrə müəyyən olunmuş risklərin qarşısının alınması üçün tədbirlər planı hazırlanır və icrası təmin edilir.

7.6. Risk yanaşması Bankı riskdən qorumaq məqsədi ilə istifadə edilən metodları əhatə edən risk idarəetmə prosesinin bir hissəsidir. Bank hər bir risk üzrə aşağıda qeyd olunan yanaşma üsulllarından birini seçə bilər:

- Riskin qəbul edilməsi,
- Riskin minimallaşdırılması,
- Riskin ötürülməsi,
- Riskdən yayınma,

Qəbul edilən metod, ssenari və modellərin tətbiq olunmasıyla əldə edilən nəticələr haqqında Risklərin İdarəedilməsi Komitəsinə hesabat təqdim olunmalıdır. Risklərin İdarəedilməsi Komitəsi nəticələri təhlil edərək effektiv bir risk idarəetmə üçün görüləcək tədbirləri və onların tətbiq olunmasıyla əlaqədar təlimatları Risklərin İdarəedilməsi departamentinə təqdim etməlidir.

7.7. Risklərin qəbul edilməsi zamanı Bankın kapital yetərlilik səviyyəsinə riayət edilməlidir.

8. Yeni fəaliyyət növləri və sistemlərin tətbiq edilməsi

8.1. Bank öz fəaliyyətində aşağıdakı prioritet biznes istiqamətlərini müəyyən edir:

8.1.1.Kiçik və orta sahibkarlıq biznesi;

8.1.2.Pərakəndə biznes;

8.1.3.Aqro-mikro biznes;

8.1.4.Banklararası əməliyyatlar;

8.1.5.Hesablaşma-kassa xidmətləri;

8.1.6.Üçüncü şəxslər və "fintech"-lərlə əməliyyatlar;

8.2. Yeni məhsulların/fəaliyyət sistemlərinin tətbiqi zamanı bankın cari risk profili, kapitalın yetərlilik səviyyəsi, aktiv/passiv strukturu və s. nəzərə alınır, risk iştahası və bankın kredit siyasəti çərçivəsində müvafiq limit və göstəricilər müəyyən edilir.

8.3. Risklərin identifikasiyası yeni məhsul və fəaliyyət növlərinin hazırlanması mərhələsində aparılır və bütün aidiyyati tərəflər ilə razılaşdırılma yolu ilə təmin edilir.

8.4. Bütün yeni layihələr üzrə layihənin təsdiqlənməsi mərhələsində ona məxsus risklər identifikasiya və analiz edilir, məsuliyyət sahələri və məsul şəxslər təyin edilir.

8.5. Bütün yeni və mövcud olan məhsullar, xidmətlər üzrə edilən təklif layihələri və daxili normativ aktlara edilən əlavə və dəyişikliklər Risklərin İdarəedilməsi Departamenti, Hüquq Departamenti, PL/TMM və Komplayens departamenti ilə razılaşdırılır, bu departamentlər tərəfindən müvafiq qiymətləndirmələr aparılır və qiymətləndirmə nəticələri Riskləri İdarəetmə Komitəsinə təqdim edilir.

9. Limit Sisteminin yaradılması

9.1. Risklərin müəyyən dərəcədə məhdudlandırılması üçün bankda əməliyyat və səlahiyyətlərə görə limitlər müəyyənləşdirilməlidir. Limit sistemi, Bankın üzərinə götürdüyü risk səviyyələrinə görə məhdudiyyətlərin qoyulması, həmçinin Bankın fəaliyyətlərinin həcminə və xarakterinə uyğun aktiv və passivlərin strukturunun formalaşdırılmasının təmin edilməsi üçün yaradılır.

9.2. Limit sistemi aşağıdakı kateqoriyalara bölünür:

9.2.1. <u>Kredit limitlərinə aiddir:</u>

- Növünə görə maksimum kredit miqdarı,
- Bir borcalan və ya bir biri ilə əlaqəli olan borcalanlar qrupuna görə maksimum kredit miqdarı və bu cür kreditlərin cəmləşməsi;
- İri kreditlərə aid məhdudiyyətlər,
- Kreditlərin valyuta növlərinə görə konsentrasiyası,
- Bankın aidiyyati şəxslərinə verilən kreditlərin maksimum miqdarı və bu cür kreditlərin cəmləşməsi,
- Kreditlərin iqtisadiyyatın sektorları üzrə cəmləşməsi,
- Təminat növünə görə cəmləşməsi,
- Təminatın bazar dəyərinin kredit miqdarına nisbəti,
- Kreditlərin verilməsi barədə qərarlarının qəbul edilməsində səlahiyyətlərin bölüşdürülməsi,
- Digər kredit limitləri.

9.2.2. <u>Fəaliyyət limitləri:</u>

- Qiymətli kağızlara dair əməliyyatlar,
- Banklar arası kredit və depozit əməliyyatları,
- Fiziki və hüquqi şəxslərin nağdlaşdırma limitləri,
- Digər fəaliyyət limitləri.

9.2.3. <u>Əməliyyat limitləri:</u>

- Məxaric limitləri,
- Köçürmə limitləri,
- Kassa limitləri,
- Müxbir hesablara görə limitlər,
- İnkassasiya limitləri,
- Konvertasiya limitləri,
- Digər əməliyyat limitləri.

10. İş davamiyyət planı

10.1. Fövqəladə vəziyyətlərdə müəyyən riskləri idarə etmək məqsədiylə "İş davamiyyət planı" (Plan) hazırlanır.

10.2. Fövqəladə hallara səbəb olan vəziyyətlər:

- Təbii fəlakətlər,
- Yanğın,
- Enerji, rabitə və ya su kimi vacib infrastruktur xidmətlərin itirilməsi,
- Aktivlərə və ya məlumatlar bazasına bilərəkdən və ya təsadüfən zərər dəyməsi,
- Nümayişlər/tətillər və iş pozuntuları;
- Sistem nasazlıqları;
- Təhlükəsizlik qaydalarının pozulması;
- Məxfi və ya şəxsi məlumatların bilərəkdən və ya diqqətsizlik üzündən açıqlanması.

10.3. İT sistemlərinin zərər gördüyü, dağıldığı və təhlükəyə məruz qaldığı hallarda fəaliyyətin fasiləsizlik mexanizmini təmin etmək məqsədiylə aşağıdakılar müəyyən edilir:
- Vəzifələr, səlahiyyətlər və qəbul ediləcək risk - əsaslı yanaşma/metodologiya;
- Planı və təsdiqləmə əməliyyatlarını sənədləşdirmək üçün qayda və strukturlar.

10.4. Tədbirlər planının əsas məqsədi Bankın və ya onun hər hansı fəaliyyət istiqamətinin müəyyən risklərin təsiri altında vəziyyətinin pisləşməsinə mane olmaqdır.

10.5. Tədbirlər planında Bankın texniki təminatında və ya telekommunikasiya sistemlərində yarana biləcək pozuntuların və nasazlıqların qarşısının alınmasını təmin etmək üçün ehtiyat surətlərin formalaşdırılması və geri yüklənməsinə görə kifayət qədər prosedurların hazırlanması nəzərdə tutulur.

10.6. Hər bir aktiv üçün fövqəladə vəziyyət təhlükələrinin ehtimal olunan təsiri, zərərin araşdırılması və geri yüklənməsi (bərpası) üçün əsas istiqamətlər müəyyənləşdirilir. Plan, geri yükləmə zaman tələblərini və yenilənmə üçün lazım olan vəsaitlərin minimum məqbul dərəcəsini müəyyənləşdirir.

10.7. Plan, Risklərin İdarəedilməsi strukturu ilə bərabər əlaqədar strukturlar tərəfindən hazırlanmalıdır. İdarə Heyəti ilə Risklərin İdarəedilməsi Komitəsi tərəfindən incələndikdən sonra Müşahidə Şurasına təqdim olunur. Plan Müşahidə Şurasına tərəfindən təsdiq olunmalı və ən az ildə bir dəfə nəzərdən keçirilməlidir.

10.8. Plan aşağıdakılardan ibarət olmalıdır:
- Planın tətbiqinə dair prosedurlar;
- Hadisədən əvvəl görüləcək tədbirlər;
- Hadisə anında tətbiq olunacaq bərpa strategiyaları;
- Əməliyyatın hadisədən və ya qəzadan əvvəlki vəziyyətə geri gətirilməsi üçün hazırlanmış bərpa strategiyalar;
- Əsas fəaliyyət sahəsinin mühafizəsi və yenidən formalaşdırılması prosedurları;
- Sosial qurumlarla koordinasiya prosedurları;
- Əlaqədar tərəflərlə, işçilərlə, əsas müştərilər və tədarükçülər, səhmdarlar və rəhbərliklə müzakirə prosedurları;
- Əməliyyatların fasiləsiz aparılmasını təmin edən qruplar, personal, müştərilər, tədarükçülər, dövlət rəsmiləri və KİV haqqında vacib məlumatlar.

10.9. Ehtiyat surətlərin çıxarılması və bərpası üçün uyğun strategiyaya planının hazırlanması, tətbiq olunması, yoxlanılması və sənədləşdirilməsi daxildir.

10.10. İT ilə əlaqədar ehtiyat surətlərinin formalaşdırılması prosedurlarına həm ölkə daxilində həm də xaricdə məlumat qovluqlarının, proqram və müvafiq sənədlərin düzgün mühafizəsi daxildir. Ehtiyat surətlər etibarlı yerdə saxlanmalı və saxlanma yeri fiziki və məlumat təhlükəsizliyi baxımından dövri olaraq nəzərdən keçirilməlidir.

10.11. Məlumatları arxivləmə prosesinin hüquqi və fəaliyyət ehtiyaclarına cavab verməsi və düzgün mühafizəsi təmin olunmalıdır.

10.12. Plan mütəmadi olaraq yenilənməli və faktiki fəaliyyət tələblərinin əks etdirməsini təmin etmək üçün nəzarət prosedurları formalaşdırılmalıdır. Başqa sözlə fasiləsizlik planının tətbiq olunma prosedurları fəaliyyətin idarə edilməsi və insan resursları ilə koordinasiyalı şəkildə həyata keçirilməlidir.

10.13. Fövqəladə vəziyyətlərdə əməliyyatların davamlılıq metodu, bütün əlaqədar tərəflərin hadisə və qəza zamanı riayət edəcəyi prosedurlar üzrə mütəmadi treyninq almasını əhatə edir.

11. Yekun müddəalar

11.1. Risklərin İdarə edilməsi üzrə Siyasət Bankın strateji inkişafına xidmət edir və onun bütün struktur bölmələri və işçiləri üçün məcburi xarakter daşıyır.

11.2. Hazırkı Siyasət Müşahidə Şurası tərəfindən təsdiq edildiyi tarixdən qüvvəyə minir və onun qüvvəyə minməsi ilə 29.03.2024-cü il tarixində qəbul edilmiş eyniadlı sənəd qüvvədən düşür.

11.3. Risklərin İdarə edilməsi üzrə Siyasətə ildə ən az bir dəfədən az olmamaq şərti ilə Riskləri İdarəetmə Komitəsi tərəfindən baxılmalı və zəruri olduqda mövcud şərtlərə uyğunlaşdırılması, əsaslı şəkildə əlavələr və/və ya dəyişikliklər edilməsi və Müşahidə Şurasının təsdiqinə təqdim olunması üçün müvafiq departamentə təkliflər verməlidir.

"Bank Respublika" ASC-nin

"Risklərin idarə edilməsi üzrə Siyas

əlaqəli struktur bölmələrin rəylərinə da

Bu sənəddə "10 "vərəq

tikilib nömrələnmişdir

Struktur bölmə	Rəy verən əməkdaş	Rəyin verilmə tarixi və saatı	Rə gö əm	
PL/TMM və Komplayens departamenti	Departament direktoru N.Nəsibov	02.04.2024, 09:53	Me Əsgərova	
Riskləri İdarəetmə departamenti	Risk İdarəçiliyi üzrə icraçı direktor T.Orduyev	27.06.2024, 10:50	Mehriban Əsgərov	Razılıq/Təşəbbüs

Tərtib etdi: Təşkilati departamentin Normativ sənədlərlə iş şöbəsinin müdiri _____

Təsdiq etdi: Təşkilati departamentin direktoru E. İsrafilov _____